«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 5 noyabr (Çərşənbə axşamı günü) tarixli XXXI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Səşənbə, 28 məhərrəmülhəram sənə 1337.
5 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

ELANİ-RƏSMİ
[RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

ELAN

Qafqaz Müsəlman Ordusuna 7 ay müddətində 150 min pud mal və qoyun əti vermək arzusunda olan zəvat [şəxslər] Mariinski caddədə 6 nömrəli evdə Ərzaq şöbəsindən şəraitini [şərtlərini] bilə bilərlər.

710 6-5

BAKI, GƏNCƏ VƏ BİLÜMUM [ÜMUMİYYƏTLƏ] AZƏRBAYCAN TACİRLƏRİ İLƏ ƏHALİYƏ ELANİ-RƏSMİ

Talan və ya oğurluq əşyası ilə alış-veriş edən saxtakar xırsızların bir an əvvəl yaxalanmalarını təmin və xalqı saxtakar xırsızların şərlərindən vəqayə [qorumaq] zimnində [yolunda] bər-vəchi-ati [aşağıdakı] təsəvvürat ittixaz olunmuşdur [tədbirlər qəbul edilmişdir]:

1. Heç bir tacirin "şot" təbir olunan rəsmi fatura almadıqca, axər [özgə] tacirdən hər hangi bir vəsilə ilə hər hangi bir şey alması şiddətlə məmnu [qadağan] olduğu kimi, əhalidən də hər kəsin nə tüccarandan [tacirlərdən], nə də qeyri kimsələrdən rəsmi fatura (şot) almadıqca çit, qumaş, möblə [mebel], xalı, səccadə, mücəvhərat və gümüş əşya, hübubat [dənli bitkilər] və heyvanat, hasili hər növ əşyadan bir şey almaları surəti-qətiyyədə [qəti surətdə] məmnudur [yasaqdır].

2. Şotsuz tutulacaq hər növ əşya və əmtəə miqdarı nə qədər az və ya nə qədər çox olursa olsun, müsadirə olunaraq əlaqədaranı [əlaqədar şəxslər] haqqında şiddətli təqibati-qanuniyyəyə [qanunla nəzərdə tutulan icraatlara] təvəssül olunacağı [başlanacağı] əhəmiyyətlə elan olunur.

3. İşbu elan 10 gün müddətlə nəşr olunacaqdır.

Azərbaycan Polis müfəttişi-ümumisi Bəhaəddin

ELANİ-RƏSMİ
[RƏSMİ ELAN]

Saxta polis və zabit uniforması ilə kəndi-kəndilərinə yalandan təhərri [axtarış] məmuru (poiskovı) süsünü [görünüşü] verən İran əhli və bəzi yerli gənc müsəlmanlardan mütəşəkkil bir saxtakar kompaniyası daha təhərri komissarlığı tərəfindən dərdəst edilmişlərdir [tutulmuşdur]. Bunların istic-vabatından [sorğu-sual edilməsindən] anlaşıldığına görə, cəbr [zor işlətmək] və təhdid surətilə safdilan [sadəlövh] əhalidən hələ para və sairə alınmaqda və ya qəsb olunmaqdadır. Əhali tamamilə bilməlidir ki, heç bir məmura heç bir surətlə para və sair əşya verilmək haqqı və səlahiyyəti verilməmişdir. Məhbusin [məhbuslar] və mövqufin [saxlanılanlar] və ya hər hangi bir işdən dolayı rüşvət verməklə hər kəs əqrəbasının məhbusiyyət və mövqufiyyətinə [həbsinə və saxlanılmasına] fayda əldə etməyə bədəl [əvəzində; qarşılığında], əlaqədaranı [əlaqədar şəxsləri] şiddət tətbiqinə təşviq edəcəklərindən, kimsə gizli vasitələrə müraciət etməməli və hər hangi bir cəbr və təhdid və ya iğfal [aldatma] vüqununda [baş verdikdə] dərhal: gündüzləri "25-80", gecələri də "6-23" nömrəli Polis Müfəttişi-Ümumiliyinə telefonla məlumat verməlidir. Polis Müfəttişliyi ildırım sürətilə hər kəsin ehtiyac və istimdadına [köməyinə yetişməyə] hazırdır.

Polis müfəttişi-ümumisi Bəhaəddin

* * *

İkinci Azərbaycan firqəsi [diviziyası] taborlarında istixdam olunmaq [xidmətə qəbul edilmək] üzrə türkcə bilən 6 feldşerə lüzum vardır. Arzu edənlər vəsiqələri ilə bərabər, hər gün saat 2-dən saat 2 sonraya qədər Rotşildin evində firqə sərtəbabətinə [baş həkimliyinə] müraciət etsinlər.

ELAN

Azərbaycan Cümhuriyyəti Polis müfəttişi-ümumisindən

Əhalinin 2 ay müddətində vərəqə almaları üçün elan etdiyim əmrə əlavə olaraq xəbər verirəm ki, bu əmr müsəlman qadınlarına aid olmayıb, fəqət arzu edənlər əkslərini [fotoqraflarını] alacaqlar.

İZHARİ-TƏŞƏKKÜR

Bakıda yaşayan Rus Zabitanı [Zabitləri] Cəmiyyəti, Qafqaziya İslam Ordusu Baş Komandanı Nuri paşa həzrətlərinə rus zabitanının ağır vaxtda əhvallarını nəzərə alaraq məvacib və ərzaq verilmək barəsindəki təşəbbüsatından naşi [ötrü] təşəkkürlər izhar edirlər.

Zabitan tərəfindən vəkillər:
Miralay [polkovnik] Jurakovski
Miralay [polkovnik] Potapov
Nadvornı sovetnik Sopov

TELEQRAF XƏBƏRLƏRİ

* Qalvits ordusundan: Maas çayının şərqi sahilində bütün gün müddəti top atışması nəhayət dərəcə dəhşətli bir surət almışdır. Cənub-şərq müharibə meydanında alman əsgərləri Belqrad ilə Səməndriyənin hər iki tərəfində Tuna çayının şimal sahilinə çəkilmişlərdir.

* Vyana - Venedik vadisində təxliyə hərəkatı davam etməkdədir. Bizim ümdə qüvvələrimiz cənub-şərqdə Tuna nəhrinin şimali sahilinə çatmışlardır.

* Roma - Erməni millətinin burada cəm olmuş nümayəndələri müstəqil Ermənistan təsisi nəfinə [xeyrinə] çalışmaqdadırlar.

* Xarkov - Bəhriyyə vəziri Maksimov, Qara dənizdə ingilis və fransız gəmi donanması nümayan olduğu [görüldüyü] haqqındakı şayiələri təkzib edir. Onun rəyincə bu xəbərlər xəyalat meyvəsidir.

* Vyana - Avstriya almanlarının Milli Şurası müvəqqət bir məşrutə [konstitusiya] qanunu hazırlamışdır. Hökumət işləri, 3 rəis və bir üzvdən ibarət İcraiyyə Komitəsinə verilir. Bu komitə Vilsona bir nota göndərib Avstriya almanları tərəfindən bitərəf bir hökumət təşkil olunduğunu xəbər verməklə, öz nümayəndələrinin sülh müzakirələrində iştirak etməyə buraxılmalarını tələb edir.

* Budapeşt - Slavoniyada iğtişaş artmaqdadır. Nasits şəhəri alov içindədir. Mülkədarların sarayları talan və qarət edilməkdədir. Əsgərlikdən fərar edənlər, kəndləri qarət edib yandırırlar. Dəmiryol hərəkatı dayanmışdır. Macarlar Fiume şəhərini saxlaya bilmədilər. Bu şəhər xorvatlara verilmişdir. Macarıstan-Xorvat sərhədi boyu böyük bir həyəcan hökmfərmadır [hökm sürməkdədir]. Macarıstan əhalisi xorvatların macar torpağına soxulacaqlarından ehtiyatla əsgər göndərilməsini xahiş edirlər.

* Praqa - Çex Hökuməti, çex məşrutə [konstitusiya] qanunlarını elan etmişdir.

* Zaqrebdən xəbər verirlər ki, əsgərlikdən fərar edən minlərcə nəfər Sava və Drava silsileyicibali [dağ silsiləsi] arasına cəm olmuşdur. Əsgərlikdən fərar edənlər şəhərləri və kəndləri qarət edib, ərzaq və mal aparmaqda olan vaqonları tutub saxlayırlar. Əsgərlikdən fərar edənlər mütəşəkkildirlər. Onlar bir büro tərəfindən idarə olunmaqdadırlar. Zaqreb tacir və bankirləri, Zaqrebin əsgərlikdən fərar edənlər tərəfindən zəbt ediləcəyindən çox qorxurlar.

* Berlin - "Berliner taqeblatt" qazetəsinin Peştdən aldığı teleqraflara görə orada inqilab başlanmışdır. Milli Şura, hökumət işini öz öhdəsinə götürmüşdür. Bütün əsgərlər və polis Şuraya təbəiyyət etmişlərdir [tabe olmuşlar].

* Vyana - Bohem Xalq Şurasının Aussiqdə ictiması vaqe olmuşdur [iclası baş tutmuşdur]. Bu ictima Bohemin almanlarla məskun qisminin alman torpağına ilhaqını [birləşdirilməsini] tələb edir.

* Alman milli firqələri dünkü iclasda Andraşinin Vilson notasına cavabı haqqında ədəmi-məmnuniyyət izhar etmişlərdir [narazılıq bildirmişlər]. Çünki Andraşi notaya cavab vermədən əvvəl nə alman hökuməti və nə də alman icra komitəsilə sazişə girmiş imiş. Alman milli firqələri, Avstriyanın almanlarla məskun qisminin istiqlaliyyət hüququnun saxlanılmasını və alman hökuməti ilə olacaq sazişin feilən icraya qoyulmasını icraiyyə komitəsində təkidən [israrla] tələb edəcəklərdir.

* Vyana - İmperatorun binagüzarlığı [sərəncamı] ilə Avstriya-Macarıstan donanması Aqramda olan Cənubi Slav Milli Şurasına təslim edilmişdir.

* Paris - Macarıstan Hökumətinin binagüzarlığı [sərəncamı] ilə Fiume şəhəri xorvatlara təslim edilmişdir.

SÜLH ƏTRAFINDA

İstanbul - 1 təşrini-sani [noyabr]. Mütarikə [atəşkəs] əqd edildiyindən naşi [imzalandığı üçün] 1918-inci sənəsinin 30 təşrini-əvvəlindən [oktyabrından] etibarən bütün hərb cəbhələrində dava hərəkatı [döyüş əməliyyatları] dayandırılmışdır.

İstanbul - Türkiyə ilə İngiltərə miyanında [arasında] sülh müzakiratı [müzakirələri] iki məhəldə [yerdə] aparılır: İsveçrə paytaxtı Berndə və Midilli adasında. Müzakiratda İngiltərə generalı Taunsend vasitəçilik edir.

Vyana - 30 təşrini-əvvəl [oktyabr]. Millətlər müharibəsinə mütarikə və sülh əqdi [müqaviləsi] ilə xitam verilməsi haqqındakı mükərrər [təkrarlanan] qətnaməmizə müvafiq olaraq İtaliya cəbhəsində müharibə edən qoşunlarımız işğal edilmiş yerləri təxliyə edəcəklər.

BAKI HAQQINDA AZƏRBAYCAN HÖKUMƏTİNİN NOTASI

İstanbul qəzetələrində sentyabr ayı ortalarında Azərbaycan sülh heyətinin sədri Məhəmməd Əmin Rəsulzadə tərəfindən təqdim edilmiş və eyni zamanda surəti, bitərəf və Mərkəzi hökumətlər səfarətlərinə göndərilmiş bir nota dərc edilmişdir. Almaniya ilə Rusiya arasında əqd edilən [bağlanan] əlavə müahidənamədə [razılaşmada] Bakının Şura Hökuməti əlində saxlanması haqqındakı maddəyə görə məzkur [adı çəkilən] notada Azərbaycan Hökumətinin Bakı şəhərinə tarixi bir haqqı olduğunu isbat etmək üçün şəhərin tarixi haqqında müfəssəl məlumat verilmişdir. Bu tarixi hüquq coğrafi, iqtisadi və milli təsəvvüratla isbat edilməktədir. Həmçinin notada göstərilir ki, Bakı şəhəri elm, mədəniyyət və sənaye cəhətincə də Azərbaycanla əlaqədardır. Çünki ümumsiyasi, iqtisadi, ictimai, dini və xeyri [xeyriyyə] müsəlman müəssisələri Bakıdadırlar.

Məzkur notada Almaniya ilə Rusiya arasında əqd edilən əlavə müahidənamə və millətlərin istiqlaliyyəti əsasına istinad edilməsi haqqında təəccüb izhar edilir. Rusiya inqilabı tərəfindən elan edilib və Brest-Litovsk əhdnaməsində təsdiq olunmuş əsasa istinadən - ki bu əsas üzərinə hər millət öz müqəddəratını həll etmək ixtiyarına malik olur - Azərbaycan milləti Mərkəzi Dövlətlərin hüsni-münasibatına [müsbət yanaşmasına] etimad edərək, əsrlərdən bəri təzyiqi altında qaldığı Rusiya istibdadını yıxıb özünü müstəqil elan etdi. Azərbaycan milləti, Almaniya Hökumətinin əlavə müahidənamə ilə Azərbaycanın ruhani, iqtisadi və siyasi mərkəzi, paytaxtı olan Bakı şəhərinin Rusiya əlində qalmasına rizasından xeyli narahat olmuş idi. Notanın axırında ümidvarlıq bəyan edilir ki, Almaniya dövləti Azərbaycan Hökuməti və millətinin Bakı şəhərinə malik olmaları hüququnu ciddi surətdə nəzərə alar.

TÜRK MƏTBUATI

Bakının işğalı münasibətilə İstanbulda müntəşir [çıxan] "Yeni gün" qəzetəsi, iri hərflərlə "Bakı üzərində Azərbaycan bayrağı mütəməvvic [dalğalanır]" sərlövhəsi altında bir mütaliə yazaraq ümum türkləri, xüsusən Azərbaycanlıları təbrik və təbşirlə [muştuluqlamaqla] deyir ki:

"Azərbaycan qitəatı [birlikləri] Bakını zəbt etdilər. Din və irq qardaşlarımızı təbşir və təbrik edəriz.

Cənubi Qafqaziyada təşəkkül edən dinirq qardaşımız Azərbaycan Hökumətinin paytaxtı olub, bir qisim ruslarla ermənilərin zülmü altında inləyən Bakı şəhərinin Azərbaycan milli qüvvətləri tərəfindən mühasirə edildiyini qəzetəmiz daha ikinci nüsxəsində xəbər vermişdi. Türk aləminin ən mühüm mərkəzlərindən biri, qardaş bir hökumətin paytaxtı olan Bakının zülmiüdvan [düşmən zülmü] əlindən qurtarılması lüzumunu əhəmiyyətlə nəzər-diqqətə alan və bu xüsusda baş məqalələr, xəritələr, rəsmlər, məlumat dərc edən qəzetəmiz, bu mübarək bayram günü də Bakının istirdad [xilas] edildiyini qarelərinə [oxucularına] müjdələməklə mübahidir [iftixar edir].

Bakı şəhərinin iqtisadi əhəmiyyəti nə olursa olsun, bizcə hər şeydən əvvəl din və irq qardaşlarımız Azərbaycanlıların bəhəqqin [haqlı olaraq, haqları çataraq] təsis etdikləri yeni və gənc hökumətin paytaxtı olması etibarilə bizcə böyük və milli bir əhəmiyyəti vardı. Biz yeni siyasi mövcudiyyətlə ortaya atılan Azərbaycanlı qardaşlarımızın zində [canlı; diri] və çalak [cəld] bir mahiyyətlə hökumətlərini təyid [təsdiq] etmələrini və paytaxtlarını da az zamanda düşməndən təmizləyərək istiqlallarını ikmal və itmam eyləmələrini [təkmilləşdirmələrini və başa çatdırmalarını] bütün qəlbimizlə istəyirdik.

Tanrı-taalaya yüz minlərcə şükür olsun ki, bu mübarək gündə bu milli əməlimizin də [arzumuzun da] yerinə gəlmiş olduğunu xəbər alaraq, mütəhəyyic və məsrur oluruz [həyəcanlanır və şad oluruq] və biliriz ki, müqəddəratın cızdığı hüdud daxilində təəssüs etdikdən sonra paytaxtı da istirdad edən Azərbaycan Hökuməti, siyasi mövcudiyyətini kainata tanıdacaqdır. Şəhərimizdə bulunan möhtərəm Azərbaycan heyəti-mürəxxəsəsini [nümayəndə heyətini] təbrik edir və bütün İslam aləmində kəndisini əlaqədar və mühəyyic edən [həyəcanlandıran] bu müvəffəqiyyəti müjdələməklə milli və qüds [müqəddəs] bir vəzifə yapmış olduğumuza qənaət gətiririz".

"Yeni gün" rəfiqimizin bərabərə [qardaşca] və səmimi sevinci və Azərbaycana qarşı ibraz etdiyi [göstərdiyi] məhəbbəti xüsusən "Azərbaycan Hökumətinin siyasi mövcudiyyətini kainata tanıtdırması" haqqındakı mütaliəsini dərin bir hüsni-məmnuniyyət və təşəkkürlə qarşılayaraq bütün aləmi-İslamın pənahı və Azərbaycanın hamisi olan böyük Osmanlı türk qardaşlarımızın siyasi mövcudiyyətimizi tanıtdırmaq məsələsində də bizə müzahirətdə [köməklikdə] bulunacaqlarına əmin olmaqla bərabər, İstanbul mətbuatının bu uğurda müavinətini [yardımını] diləriz.

İSTANBULDAKI MƏKTƏBLƏR

Bu yaxınlarda İstanbuldan şəhərimizə gəlmiş mötəbər bir zat ilə müsahibə əsnasında İstanbula getmək istəyən tələbənin əşədd [şiddətli] dərəcədə etinasını cəlb etmiş ali və edadi məktəblər haqqında bir parça aldığımız məlumatı dərc etməkdən, getmək iştiyaqında [arzusunda] olanlar üçün mənfəətdən xali görmədim.

Hələ İstanbulda məktəblərin həpsi açıqdır və içlərində çoxu da leylidir (pansionlu). Təbii, nəhari məktəblər [gündüz məktəbləri] də mövcuddur. Bəzi məktəblərdə yuxarı kurslarda (siniflərdə) təhsildə olunanlar hərbə sövq edildiyi üçün bir qaç məktəblərdəki yuxarı siniflər qapanmış. Bu gün buradan getmək istəyənlər üçün onun o qədər əhəmiyyəti yoxdur.

Burada edadi məktəblərini bitirmişləri orada darülfununa qəbul edirlər. Darülfununda maliyyə, ticarət, ədəbiyyat və fəlsəfə, hüquq, mülkiyyə (mülki məmurlar yetişdirmək üçün) şöbələr vardır.

Tibbiyyə məktəbi xüsusi şöbələriylə Türkiyə məktəblərinin birincisindən ədd [hesab] edilə bilər. Çox eyi məktəblərdən yenə də pedaqoji məktəbidir. Həm əsgəri mühəndis, həm mülki mühəndis yetişdirəcək ali məktəblərimiz də açıqdır. Bunların hər şöbəsi varsa da, fəqət elektrik şöbəsi yoxdur. Bunda ixtisas kəsb etmək [qazanmaq] üçün amerikan məktəbinə girmək mümkündür. (Bu isə ali deyildir.) Bu gün Türkiyədə ən mükəmməl məktəb, Bəhriyyə [dənizçilik; donanma] məktəbidir. Bunun da bir çox şöbələri olmaqla xüsusi ticarət şöbəsində də təhsil davam edir. 3 sənəlik darülmüəllimin [müəllim hazırlayan məktəb] var. Burada üç dürlü müəllimlər hazırlaşır: ibtidai, edadi və ali məktəblər müəllimi. Qızlar üçün darülmüəllimat [müəllimə hazırlayan məktəb] vardır. Bundan maəda [başqa], xəstəyə baxıcılıq üçün məktəblər açılmışdır ki, orada ordu üçün baxıcılar və sihhiyyələr yetişdirilir.

Bir qaç sultaniyyə məktəblərilə qız sultaniyyələri də Türkiyədə ən gözəl edadilərdəndir. Maranqozluq [xarratlıq], ayaqqabı və başqa sənət məktəbləri də var.

Bu gün bizə ən vacib olan Hərbiyyə məktəbində hər növ şöbələr var. Belə ki, buradan gedəcək tələbə, dosdoğru gedib İstanbulda təhsil edərsə, heç bir zaman aldanmış olmaz. İstanbulda hər halda Bakıdan ucuzluqdur. Belə ki, burada etdiyi məxariclə İstanbulda ağayana bir həyat sürmək olar.

M. H.

GƏNCƏDƏ MİLLİ ZABİTAN TƏFTİŞ VƏ İMTAHAN MƏRASİMİ

II

Məşq başlandı. Proqram üzrə tam dəstgahlar görsəndi. İnsanı heyrətə salan bir hal bomba müharibəsi idi. Belə bir müharibə, Azərbaycanın paytaxtı Bakının alınmasını təşbih göstərirdi [canlandırırdı]. Cavan balalar, nişan tərəfə ən əvvəl saxta bombalar atdılar. Ondan həqiqi bomba atılması başlandı: göyün üzünü tüstüdən duman tutdu, gurhagur başlandı. Bütün şəhərə və ətrafına zəlzələ misalı səs düşdü. İnsanın tükləri biz-biz dururdu. Necə ki, yüz bombalar partladı, tamam paytaxtın alınmasının şəkli görsəndi. Ondan sonra "fuqaslara", telli yollara bombalar atıldı. Yavaş-yavaş yeriyib telləri qayçılarla kəsmək görsəndi. İnsan heyran olurdu! Sonradan genə sipərlər alıb orada istehkamat yapmaq rəsmi görsəndi. Bu dəxi genə bomba ilə atəşlənirdi. Fənni-hərb [hərb elmi] qanunu üzrə ən mühüm məsələ "fuqasları" almaqdır. Bu məsələdə böyük bir məharət gördük. Heyət gördüklərini lazımınca təqdir edərək hər imtahanı dəftərə səbt [qeyd] edib yazırdı. Bombalar açılan zaman heyət və tamaşaçılar üç yüz addım fasilədə durmaqda idilər. Bunlar qurtardıqda "qaz" buraxılmaq və ondan nə növ mühafizə edilmək elmi görsəndi. Cavan balalar gözəlcə ən ədəbi bir türk lisanında bəyanat verdilər. Bu üç ay yarımın zamanında bunların ədəbiyyata belə aşına olması bütün tamaşaçıları məbhut [heyran] edirdi. Onlar, Azərbaycanlı qardaşlarının nə dərəcə müstəid [qabiliyyətli, istedadlı] bir zat olduğunu gördülər. Ancaq ustadları olmadığı üçün indiyə qədər belə bir halda qalmışlarmış!

Yarım saat tənəffüs verildi. Mehmanlar xüsusi mənzilə gəldilər. Burada çay təklif olundu. Genə zabit namizədlərindən tar çalıb türkü-şərqilər oxundu və milli rəqslər başlandı. Kimsə bacardığını göstərdi. Tənəffüs bitdi. Tabor komandanı İrfan bəy nizam əmrini verdi. "Silah omuza" əmri verildi. Burada təkrar ərz edirəm. Xəyal dərk edəmməz bir hal idi! Cavan balalar tüfənglərini əllərində bir qələm oynadır misalı göstərirdilər. Ən mühüm bir fənni-hərb göstərildi. At üstündə bölük komandanı nizamla qoşunu çəkdi və dağları almaq təklifi eylədi. İki kilometrə qədər cavanlar ayrılıb birbirlərinə təərrüz [hücum] eylədilər. Bu məsələ ən mühüm bir nöqtəni göstərirdi. Makinəli tüfənglər açıldı, fişəngbazlıq başlandı. Tam iki saat müharibə davam eylədi. Bu tərəf o tərəfə qalib gəldi. Məsələ əncama yetdi.

Baydaq və şeypurlarla cavanların bir yerə cəm olunması təklif olundu. Cavanlar şərqilər oxuya-oxuya bir yerə cəm oldular. "Rahat dur" əmri verildi. Heyət irəli gəldi. Əqəbində [arxasında] tamaşaçılar durdular. Əli paşa həzrətləri birdən naxoş oldu və həkimlərin təklifinə görə evə qayıtmağa məcbur oldu.

Ən əvvəl ikinci Azərbaycan firqəsi komandanı Nazim bəy həzrətləri belə bir nitq söylədi:

"Əfəndilər, bu gün Azərbaycanın həyatında ən şadlı bir gündür. Biz sizlərin qardaşları olduğumuz halda, uzaq yerdən gəlib sizi belə bir istedad sahibi gördükdə ənsəmimül-qəlb [səmimi-qəlbdən] fərəhnak olub [sevinib], sizi, deyil bu günlə, vəli gələcəklə təbrik edirəm. Mən kəndim müharibə tərəfdarı olmayıb da sülh və səlah [asayiş] tərəfdarıyam. Lakin "Hazır ol cəngə, əgər istər isən sülhü səlah" mövcibincə [...uyğun olaraq] kimsə ki, sülh istər, labüd cəngə hazırlaşmalıdır. Çünki insan hərbə hazır olarsa, bir kimsə ona təərrüz [hücum] edəmməz. Bu gün, əfəndilər, sizin böylə bir fənni-hərbə aşina olduğunuza mən çox şad oluram və ümidim budur ki, siz Azərbaycan Hökumətinin müqtədir [bacarıqlı] bir zabit və əsgərləri olacaqsınız və gələcəkdə dəxi vətəninizi müdafiə edə biləcəksiniz. Açıq bir məsələdir ki, vətəni müdafiə etmək üçün qüvvə təşkili lazım gəlir və siz dəxi bu qüvvəyə malik oldunuz! Bu gün mən Azərbaycan Hökumətini belə bir cavanların meydana çıxması ilə təbrik edirəm. Əmin olunuz ki, sizlərlə gələcəkdə hökumət iftixar edəcəkdir."

Ondan sonra Maarif naziri Nəsib bəy Yusifbəyov böylə bir nitq söylədi:

"Övladlarım! Hökumət mənim dilimlə sizə salam göndərdi və bir neçə söz ərz etməyi mənə əmr buyurdu. Mən onunla kifayət edəcəyəm. Hökumətin fikrinca, millətin və Azərbaycanın istiqbalı sizin əlinizdədir. Əgər siz arzu etdiyiniz ordunun təşkilinə səbəb olsanız, millətin istiqbalı [gələcəyi] təmin ediləcəkdir. Bu gün gördüyüm hünərləriniz mənə iman verir söyləməyə və Hökumətə xəbər aparmağa ki, xatircəm ola biləriz ki, istiqbalımız təmin olunacaqdır. Az bir zamanda sizin göstərdiyiniz hünərlər, dünyanın ən zəki, ən mədəni millətlərinin balaları belə göstərə bilməyəcək hünərlərdir.

Şad olduq. Yaşayın ki, siz bu gün öz Hökumətinizi şad eylədiniz və uzaq mənzillərdən gəlmiş bizim türk qardaşlarımızın ümidlərini zaye [puç] etmədiniz, onların səy və təlaşları hədər getmədi. Yaşayın və millət dəxi sizin sayənizdə yaşaya bilsin!"

Ondan [sonra] nazir həzrətləri üzünü Nazim bəyə tutub dedi:

"Bəy əfəndim, siz dəxi ən əvvəl Gəncə üçün və ondan son bütün Azərbaycan üçün zəhmətlər çakmisiniz. Siz Azərbaycanda əvvəlinci gül olub, ən əvvəl Azərbaycana qədəm qoymusunuz, yaşayınız, bizim sevgili Nazim bəyimiz."

Ondan sonra nazir həzrətləri üzünü bütün təlimgah zabitanına [zabitlərinə] və onların komandanı olan Atif bəyə tutub dedi:

"Bəy əfəndilər, hamınız ələlümum [ümumiyyətlə hamınız] və Atif bəy ələl-xüsus [xüsusən] bu təlimgah barəsində böyük bir zahmətə uğraşmışsınız və nəticəsini bu gün gördünüz. Hamınız sağ olunuz. Baxınız, əməyiniz zaye olmamışdır. Azərbaycanın cavanları öz istedadları ilə bərabər, sizin səyinizi və hümmətinizi bəyan etdilər. Həddən ziyadə zəhmət çəkdiyinizi etirafla, Azərbaycan gənclərinə Hökumət və millət naminə təşəkkür edirəm.

Bu [şeyi ki,] Gəncədə görmüşəm və bilirəm, onu Hökumət itirməz və mən dəxi sizə çox yaşayınız deyirəm."

Sonra nazir həzrətləri üzünü Nuri paşanın pədəri Əhməd paşa həzrətlərinə tutub dedi:

"Paşa həzrətləri! Bu gün banisi sizin övladlarınız Ənvər və Nuri paşalar həzrətləri olan Azərbaycanın mumaileyh [adı çəkilən] paşalara böyük ehtiramı var. Ümumtürk aləmi, baxüsus Azərbaycan boynunda onlar böyük haqlar qoymuşlar ki, heç bir zaman millətin qəlbindən və dimağından [beynindən] xatiratı silinməyəcəkdir. Bu iki övlada malik olan pədər [ata], bütün dünyada alnı açıq, başı yüksək gəzər və iftixar edə bilər. Sizin kimi məsud atalara az təsadüf edilər. Yaşasın Əhməd paşa və əziz övladı."

Nəsib bəy həzrətləri kəlamını qurtarandan sonra Daxiliyyə Nəzarəti idarə müdiri Mehdi bəy Hacınski böylə bir nitq söylədi:

"Ey türk! Bu gün Azərbaycanın namusu sizin əlinizdədir. Sizlə bərabər gəlməkla, siz tərbiyə verib meydana çıxartdığınız türk balaları Azərbaycanın varlığını və namusunu saxlayacaqdır. Bununla bərabər bütün millət sizə etimad edərək balalarını sizə tapşıracaqdır. Belə surətdə bu gündən həmi-şəlik yadınızda saxlayınız ki, Gəncəmiz Yelizavetpol olmuşdu. Əlhəmdülillah bu dəyişildi, amma Səməndər – "Petrovski"dir. Əmir Teymurun vətəni olan Türküstan əcnəbi əlindədir. Türküstanın boğazı olub və gələcəkdə türk aləminin üçüncü İstanbulu olan Uzunada – "Krasnovodski"dir. Əski Mərğilan "Skobelev"dir. Bunları yadınızdan çıxarmayınız və həmə-vəqt [həmişə] gözlərinizin qabağında saxlayınız və bunu daima fikir ediniz ki, Gəncə dəyişildi. Onlar dəxi öz adlarına gərək malik olsunlar və Turan övladı öz hüququnu bilsin. Ey türk, mən müharibə tərəfdarı deyiləm. Kimsə millətimin izzəti-nəfs və şərəfinə toxunarsa, onu gərək dəf edək. Napoleoni-kəbir [Böyük Napoleon] demişdir: "Həyat üçün pul, pul, bir dəxi pul lazımdır." Mən də cürətlə deyirəm: Bugünkü gündə, böylə bir zamanda həyati-milliyyət və namusi-milliyyət üçün süngü, süngü, bir də süngü lazımdır. Sizi öz müəllimlərinizlə bərabər təbrik edib və bütün Turan övladının bir yerə toplaşmasını və onların salamatlığını istərəm."

Mehdi bəydən sonra Gəncə Bələdiyyə rəisi Ələsgər bəy Xasməmmədov həzrətləri böylə bir nitq söylədi:

"Qardaşlarım, sizi Gəncə şəhəri tərəfindən təbrik edirəm. Bu şəhər Azərbaycanın əvvəlinci paytaxtı olmuşdur və burada əvvəlinci Azərbaycan zabitləri dəxi siz olmuşsunuz. Sizin böylə bir fənni-hərb işinə dara olduğunuza [hərb elmini mənimsəmənizə] artıq dərəcə şad oluram. Siz heç bir vaxtda Gəncənin yadından çıxmayacaqsınız və əmin olunuz ki, bütün millət canüdillə sizə hüsni-təvəccöh göstərəcəkdir. Biz gərək uzaq yoldan gələn qardaşlarımızın sağlığına dua eyləyək ki, onlar bizim canımızı və bütün həyatımızı düşməndən qurtardı. Allah ömür versin xəlifəmizə! Onun bu yolda zəhmət çəkən əsgər və zabitanına! O cümlədən Ənvər paşa, Nuri paşa, Nazim bəy və Atif bəy, bu yolda sizlə bərabər zəhmət çəkib sizi bu dərəcəyə yetirən zabitan əfəndilərə!"

Bələdiyyə rəisi xətmi-kəlam etdikdən [sözünü tamamladıqdan] sonra Şeyxülislam Molla Məhəmməd Pişnamazzadə həzrətləri irəli gəldi. "Qurani-şərif"dən "və cahədu fisəbilillahi" ayeyi-kəriməsi oxundu. Gözəl bir qiraət! Samein [qulaq asanlar] kəmali-huşü-guş [diqqət] ilə qulaq asırdılar. Xətmi-kəlamdan sonra Axund Pişnamazzadə həzrətləri uzun bir nitq irad eylədi [söylədi] ki, xülasəsi budur:

"Oğullarım, gözünüzü açınız, baxınız, görünüz əcnəbilər bizim başımıza nələr gətirmişdilər. Biz rahat yaşaya bilməyirdik. Məscidlərimiz xarabalara bənzərdi. Amma indi görürsünüz, şükür olsun ki, biz asudə yaşayırıq. Buna da ümdə səbəb bizim uzaq yoldan gələn türk qardaşlarımızdır ki, bizi rahi-nicata [qurtuluş yoluna] çıxartdılar. İnşallah onların sayəsində bizim də gələcəkdə maarifimiz tərəqqi edər və münəvvərüləfkar [aydın fikirli] zabitlərimiz və mollalarımız olar və bundan sonra xurafatçı mollalarımız yaşaya bilməzlər. Gələcək mollalarımız millət nə olduğunu bilər və bu barədə öz ictihadını göstərər."

Axund həzrətləri xətmi-kəlam edərək bütün müsəlmanlara və onun nigahbanı [keşikçisi] olan xəlifə həzrətlərinə duaxan oldu [dua oxudu] və bu yolda çalışanlara sağlıq istədi. Buradan heyət və əhali birbaşa genə şəhərə rəvanə oldular [yola düşdülər].

Elçi

Türk duyğuları

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 5 noyabr (Çərşənbə axşamı günü) tarixli XXXI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Ruşən Əşrəfə

6
ÇİÇƏKLƏRLƏ

Sordum bütün çiçəklərə
Bumu əski rəngləriniz?
Əvvəlcə siz sarı, pənbə
Mavi, bəyaz, mor idiniz.

Şimdi sizi bən həp qızıl
Görüyorum, əcəb nədən?
Anlatınız bu sirr nasıl?
– Çoxdan bəri kökümüzdən

Bizə gələn qızıl sudur
Bunun üçün əski gözəl
Rənglərimiz bizim yoxdur…
Buralarda sanki bir əl

Hər gün bizim kökümüzə
Bir qırmızı su töküyor
Topraqlardan özümüzə
Qızıl bir şey süzülüyor…

– Bu qızıl şey nədir?
– Qoxla
Birər kərə həpimizi
Mayamızı sən də anla,
Söylətməkdən isə bizi!

Hər çiçəkdən bir qoxladım
Baxa qaldım heyran-heyran.
Qərib-qərib çox ağladım
Qoxuyordu həpsi də qan…

18-10-334, Bakı

İRƏVAN QUBERNİYASINDA MÜSƏLMANLARIN HALI

Bu günlərdə İrəvan müsəlmanları tərəfindən Bakıya gəlmiş nümayəndələr Türkiyə ilə həmhudud olan uyezdlərin ağır şərait altında yaşadıqlarını söyləyirlər. Məzkur [adı çəkilən] uyezdlər hal-hazırda hərb iqtizasınca [səbəbindən] Osmanlı ordusu tərəfindən işğal olunmuşdur. Şu uyezdləri şərait üzrə [şərtlərə görə] Ermənistana vermək icab edir. Halbuki yerli əhalisi bilkülliyə [bütünlüklə] müsəlmanlardır. Dörd yüz min dəxi Ermənistandan buraya müsəlman əhali köçmüşdür. Hal-hazırda Osmanlı ordusunun bəzi qitəatı [hərbi hissələri] buradan çıxdığından, şu nahiyələrin müsəlman əhalisi həyəcan içindədir. Məzkur nahiyə axırıncı aylarda böyük və ağır imtahanlara uğramış, maddi cəhətdən büsbütün vardan-yoxdan çıxmış, erməni dəstələrindən dürlü əzalar və cəfalar çəkmiş müsəlman əhalisi Osmanlı ordusunun burada nüzul etməsi ilə təsəlliyab olaraq, canının məsun [toxunulmaz] və məhfuz [qorunmuş, hifz olunmuş] qalacağına itminan edirdi [arxayın idi].

Şimdi isə şu yerlərdən Osmanlı ordusunun çıxması məsələsi ilə əlaqədar olaraq bədbəxt müsəlman əhalisini vüquu möhtəməl olan hadisat [baş verə biləcək hadisələr] qarşısında dəhşət və həşyət qaplayır. Onlar kəndilərini Azərbaycan Cümhuriyyətinin bir cüzü [parçası] sanaraq, məzkur Cümhuriyyətin Hökumətinə müraciətlə onların hər bir təərrüz [hücum] və təcavüzlərdən məsun qalmalarını təmin etmək barəsində istidada [xahişdə] bulunmağı kəndilərinin vətəndaşlıq vəzifəsi ədd [hesab] etdilər. Vəilla [yoxsa; elə olmazsa] büsbütün tələf olacaqları mühəqqəqdir [qaçılmazdır]. Bundan naşi [bu səbəbdən] nümayəndələr Azərbaycan Hökumətindən Ermənistanla İrəvan müsəlman əhalisinin yerlərinə qaytarılması barəsində müzakiratda bulunmasını istida etmişlər. Erməni-müsəlman məsələsinin sabiqki tərzi qurbanı olan İrəvan müsəlman əhalisinin səsi bütün Azərbaycan türkləri tərəfindən eşidilməlidir.

Hədsiz-hesabsız əza və cəfalara uğramış İrəvan müsəlman əhalisinin yerdə qalanını müdaifə və mühafizə etmək bizim vətəndaşlıq vəzifəmizdir.

Azərbaycan Cümhuriyyəti İrəvan erməniləri ilə müsəlmanlar arasındakı münasibatı [münasibətləri] yaxşılaşdıraraq bir qaydaya salmaq, İrəvan quberniyası müsəlman əhalisinin mənafeyini müdaifə etmək qəsdilə Ermənistan Cümhuriyyəti nəzdindəki siyasi nümayəndəsini təcili surətdə İrəvana göndərməyi qət etmişdir. Bizim Hökumətimiz İrəvan müsəlmanlarının halını yaxşılaşdırmaq barəsində hər bir təşəbbüsatda bulunacaqdır.

ERMƏNİ-GÜRCÜ İXTİLAFI

Sərhəd ixtilafından naşi [ixtilafı səbəbindən] Gürcüstan Parlamanında bir neçə zat nitq söyləmişlər. Əzcümlə [o cümlədən] Gürcüstan Hərbiyyə naziri Giorqadze bu xüsusda bəyanat verərək deyir ki:

"İstiqlaliyyətimiz elan edildiyi gündən etibarən öz bitərəfliyimizi izhar [göstərmiş] və bəyan etmişik. Biz başqalarına ağalıq xəyalında deyilik, fəqət öz hududumuzu mühafizə və müdafiə etməyi özümüzə müqəddəs vəzifə ədd [hesab] edirik. (gurultulu alqış) İşbu ruhla da ordumuza tərbiyə verib hüdud müdafiəsinə göndərdik. (alqış) Ordumuz inqilab fütuhatını da [inqilabın nailiyyətlərini də] mühafizə etməlidir. Bu ordu vasitəsilə məmləkətimizdəki anarşiyi bərtərəf etməyə [aradan qaldırmağa] müvəffəq olduq. Vətənimiz üzərinə yürüyəcək qorxunu da ordumuz bərtərəf edəcəkdir. Erməni qoşunları Türkiyə əsgərləri ilə etilafdan [razılaşmadan] dolayı bizim sərhədimizi keçməyə başladı. O vaxt bizim müharibə elan etməyə haqqımız vardı. Fəqət müharibə elan etmədik. Biz qan tökmək tərəfdarı deyilik. Sülh və sairə tükənmədikcə ordumuz silaha sarılmayacaqdır.

Burada bir məsələ vardır ki, Parlamanın nəzərini oraya cəlb etməyi özümə vəzifə ədd [hesab] edirəm. Bizim qoşunlarımız üzərinə erməni hissələri atəş açırlar. Belə ittifaqlar [hadisələr] başqa yerlərdə də baş göstərməkdədir. Belə olarsa, üsyan surətini verərək amansız bir surətdə yatırmağa çalışacağız. (alqış) Biz lazımi tədabiri ittixaz etməklə [tədbirləri görməklə], məsələni sülhcuyanə bir tərzdə [sülh yoluyla] həll etməyə çalışacağız. Belə olmazsa, ordumuz vətən və Cümhuriyyətimiz hüzurunda vəzifəsini hüsniifa edər [lazım olduğu kimi yerinə yetirər]. (gurultulu alqış)"

İctimaiyyuni-amiyyun [sosial-demokratlar] tərəfindən Arsenidze öz nitqində Ermənistanla Gürcüstan miyanındakı [arasındakı] ixtilafın ən başlıca səbəbini üçüncü bir vasitədə görür. Arsenidze deyir ki, bütün Avropa sülh tərəfdarı olduğu halda, iki ufaq millət müharibəyə soxulur.

"Bunun nəticəsi nə ola bilər? İşbu iki millət üçüncü bir millətin intriqasına qurban olub gedər. Fəqət biz bu vaxtadək müharibəyə başlamadıq, başlamaq fikrində deyiliz də. Lakin nə qədər sülh tərəfdarı olsaq da, lazım gələrsə müsəlləh [silahlı] olaraq xətti-hududumuzu [sərhədimizi] mühafizəyə hər halda hazırız."

İctimaiyyuni-inqilabiyyun [sosialist inqilabçı] Nutsubidze öz nitqində deyir:

"Biz erməni millətinə dostluq göstərərək onları qəbul etdik, fəqət işbu millət bizə əvəzində nə verir? Biz ermənilərə müqabil [ermənilər qarşısında] qonşuluq vəzifəsini ifa etdik. Ermənilər isə şükranini itirmişlər. Erməni siyasi başcıları qorxulu bir oyun oynamaq xəyalına düşmüşlər. Ermənilər eşitməlidirlər ki, biz hürriyyət və məmləkətimizi mühafizə edəcək və bu uğurda Hökumətimizin dalınca gedəcəyiz. (gurultulu alqış)"

Nitqlərdən sonra İctimaiyyuni-amiyyun [sosial-demokratlar] fraksiyası tərəfindən təklif edilmiş zeyldəki [aşağıdakı] qətnamə qəbul olunur:

"Gürcüstan və Ermənistan cümhuriyyətləri miyanındakı [arasındakı] ixtilaf haqqında Hökumətin bəyanatını eşidərək, gürcü parlamanı məmnuniyyətlə qeyd edir ki, gürcü hökuməti tərəfindən ittixaz olunmuş tədbirlər göstərirlər ki, gürcü hökuməti ixtilafın sülhlə yatırılmasına çalışmış və çalışmaqdadır və ümidvar olur ki, Gürcüstan Hökuməti gürcü və erməni millətini fəlakətli müharibədən saqındırmaq üçün hər dürlü tədbirlər görür.

Bununla bərabər, Gürcüstan Parlamanı bəyan edir ki, bütün ixtilaflı məsələlərin sülhlə həlli tərəfdarı olduğu halda, eyni zamanda heç vaxt heç kəsə izin verməz ki, Cümhuriyyətimiz ərazisinə soxularaq hürriyyətimizi təhdid etsin. Binaileyh [ona görə] Parlaman, Hökumətin bütün tədabirini təsviblə [tədbirlərini bəyənərək] növbəti məsələlərin müzakirəsinə keçir."

Axırda Daxiliyyə naziri Gürcüstan istiqlaliyyətinin təsdiqi uğrunda Hökumətin təşəbbüsatı və nəticələrini göstərərək bəyan edir ki:

"İsveç Hökuməti istiqlalımızı qəbulla Stokholmda siyasi nümayəndə bulundurmamıza razı olmuş. İsveçrənin Berlin səfiri, nümayəndəmizə dostanə bir nota verərək Gürcüstana nümayəndə göndərmişdir. Biz də cavabi nota vermişik. Danimarka Hökuməti istiqlaliyyətimizi qəbula hazır olduğunu bildirmişdir.

Bundan əlava, Hökumətimiz istiqlaliyyətimiz haqqında Etilaf dövlətlərinə müxtirələr [qeyd; müraciət] təqdim etmişdir. İngiltərə və Fransa səfirləri hüsni-təvəccöhlə qarşılayaraq müxtirəmizi əlverişli qeydlərlə öz Hökumətlərinə göndərməyi vəd etmişlərdir."

BƏLƏDİYYƏ MƏCLİSİNDƏ

Təşrini-saninin [noyabrın] 2-sində Q. Qasımovun sədarətilə Bələdiyyə Məclisinin növbəti iclası vaqe olmuşdur. İclasda ibtida [əvvəla] yeni uşaq xəstəxanasına iki doktor müavini təyin etmək məsələsi müzakirə olunaraq işbu qətnamə təsdiq edilir:

1) Uşaq xəstəxanasında iki doktor müavinliyi təsis edilsin.

2) 1914 sənədən gec bitirməmək şərtilə iki gənc doktor işbu vəzifə ifasına cəlb edilsin.

3) Müavinlər iki ay müddətinə təyin edilsinlər.

4) Müavinlərin məvacibi doktor məvaciblərinin nisfi [yarısı] miqdarında olsun.

Badəhu [ondan sonra] Bələdiyyə İdarəsi üzvləri məvaciblərinin artması məsələsinə keçərək Bələdiyyə əmininə [sədrinə] 1000 rublə, onun müavini və başqa üzvlərə beşər yüz rublə maaş təyin edilir.

Sonra müştərək müqavilənamənin [kollektiv müqavilə] barəsində Perçixin bir məruzə oxuyur.

Məsələnin həlli təşrini-saninin 12-sinədək təxir edilir.

Nəhayət, şəhər üçün taxıl alınması haqqında Smirnovun məruzəsindən sonra iki maddədən ibarət bir qətnamə qəbula keçir:

1) Taxılı mala əvəz etməklə almalı. Alınacaq taxıl əvəzində ¾ para, ¼ mal verməlidir. Sülh zamanı qiyməti ilə alınacaqdır.

2) Bələdiyyə İdarəsinə ikinci dəfə olaraq Azərbaycan Hökumətinə müraciət edərək, Bələdiyyə Məclisinin 10 təşrini-əvvəldə [oktyabrda] qəbul etdiyi qətnamə üzrə qərz [borc] para alıb təcili surətdə taxıl almağı təkid etməlidir.

Axırda Bələdiyyə İdarəsinin un, əkmək, buğdaya olan taksanı fəsx [ləğv] etmək təklifi qəbul edilir.

Nəticədə Təşkilat Komisyonu tərəfindən göstərilmiş Təftiş Komisyonu namizədləri təsdiq edilirlər.

BAKI XƏBƏRLƏRİ

• Maliyyə naziri banderolsuz satılan tənbəki emalatı önünü almaq qəsdilə lazımi tədabir ittixaz edir [tədbirlər görür]. Bundan naşi [bu səbəbdən] tənbəki emalatı fiyatı enmişdir.

• Bələdiyyə İdarəsi cənbindəki [nəzdindəki] Məktəblər Komisyonunun təşəbbüsü ilə Maarif Nəzarəti əmri mövcibincə [əmrinə əsasən] həcz [müsadirə] edilmiş dərs kitablarının bir hissəsinin şəhər məktəbləri üçün verilməsinə Maarif naziri razı olmuşdur.

• Şuşa və Ağdamla teleqraf müxabiratı [əlaqəsi] təcdid [bərpa] edilmişdir. Qaryaginlə Şuşa arasında teleqraf və poçta münasibatı [əlaqəsi] başlanmışdır.

Silah təslimi haqqında

Daxiliyyə naziri həzrətlərinin xüsusi əmrinə görə, Mərkəzi Ev Komitəsi bütün ev təşkilatları[nın] diqqətlərini atidə mündəric [aşağıda dərc olunan] qətnaməyə cəlb edir:

1) İşbu elandan dörd gün keçənədək silah təslimi vaxtı bitir.

2) Silahı olan zəvat [şəxslər] dairə komitələrinə təslim etməlidirlər. Silah yeri bilən əşxas [şəxslər] isə təhrirən [yazılı surətdə] Mərkəzi Ev Komitəsinə məlumat verməlidir.

3) Ev komitələri işbu məsələyə lazımi əhəmiyyət verməlidirlər. Bir evdən silah tapılarsa, silah saxlayan zat [şəxs] və ev komitəsi heyəti-rüəsası [rəhbər şəxsləri] şiddətli cəzaya uğrayacaqlardır.

Müəllimlər iclası

Çaharşənbə günü təşrini-saninin [noyabrın] 2-sində Bakı quberniyası Məkatib [məktəblər] müdiriyyəti dəftərxanasında Lənkəran və Cavad uyezdləri xalq məktəbləri müəllimlərinin ümumi iclası vaqe olaraq, məhəlli-xidmətlərinə [xidmət yerlərinə] getmələri məsələsini müzakirə edəcəklərdir.

* * *

• Ev sahiblərinin ev vergisini 20-dən 10 faizədək əksiltmək barəsindəki təşəbbüsatlarını Bələdiyyə İdarəsi rədd etmişdir.

• Ərzaq Nəzarəti tərəfindən alınmış məlumata görə, Vladiqafqaz dəmiryolunun Qusarçay mövqifində [stansiyasında] dəmiryolu zəbtiyyəsi [nəzarətçisi; administrasiyası] yoxdur. Mal göndərənlər özləri mallarını vaqonlara yığıb, keçən qatara bağlayaraq yola salırlar. İşbu mövqifdə zəbtiyyə yoxluğundan dolayı Ərzaq Nəzarəti ərzaq göndərilməsini qaydaya salmaqdan acizdir.

• Milliləşmiş darülmüəllimin [pedaqoji məktəblər] və Nuxu, Qazax aliibtidai məktəbləri üçün Bakıdan lazımi miqdarda tədrisat və dəftərxana ləvazimatı göndərilmişdir.

• Xaçmaz və Quba ilə teleqraf müxabiratı [əlaqəsi] başlandığından naşi [başlandığına görə], hər növ teleqramlar qəbul edilir.

* * *

Xalq Təssərüfatı Şurasında

Ticarət və Sənaət [Sənaye] nazirinin rəsmi əmri mövcibincə [əmrinə əsasən] halhazırda milliləşmiş neft və başqa malların hesabı edilir. Əlavə ənva' [müxtəlif] firma və başqa zəvatın da [şəxslərin də] Xalq Təsərrüfatından tələbləri tərtib və qaydaya salınaraq hesab edilir. Anbarlarda bulunan neft və neft məhsulatının [məhsullarının] hesabı iki gündən sonra qurtaracaqdır.

TEATRO VƏ MUSİQİ
"Nadir Şah Əfşar"

Bazar günü təşrini-saninin [noyabrın] 3-ündə Bakıda Türk Teatrosunun qış mövsümü açılması münasibətilə halımıza [müasir dövrümüzə] pək yaqışan [yaraşan] İranın inqilab zamanından götürülmüş Nəriman Nərimanovun əsəri "Nadir Şah Əfşar" draması Hacıbəyov bəradərləri müdiriyyəti artistləri tərəfindən mövqeyi-tamaşaya [səhnəyə] qoyuldu. Birinci pərdədən irəli səhnəyə məşhur aktyorlarımızdan Hacıağa Abbasov çıxıb türk qardaşlarımızın rəşadəti, onların yüksək dağları aşaraq bizə imdad əlini uzatmaqla neçə illərdən bəri rus çarlığı sansürü [senzurası] altında inildəmiş Qafqaziya türkləri səhnəsində bir qədər vüs'ət, bir parça gözəllik və sənətə xidmət imkanı olacağına ümid bəslədiyini izhar etdi.

Ondan sonra rus teatro dəstəsi müdiri Amiraqo, türkcə bilmədiyinə təəssüflərlə izhari-etizar bə'dində [türkcə bilmədiyinə görə üzrxahlıq etdikdən sonra] rusca bir nitq irad etdi. Nitqi bu idi ki, siyasət işlərindən kənarda durub daima sənət üçün çalışdığından, bu gün yenə də səhnənin ixtiyarı ona verilmişdir.

Bakı səhnəsinin Azərbaycan hakimiyyəti altında zaman-zaman gözəlləşməsinə bir tərəfdən səy və qeyrət ediləcəkdir.

Bunlar getdikdə, sevgili aktyorlarımızdan Mirzəağa Əliyev, cavan şairimiz Cavadın türk rəşidlərinə [igidlərinə] ithaf etdiyi şeirlərdən bir parça oxudu və alqışlara nail oldu.

Gecə vaxt keçdiyindən dolayı natamam qalan şu faciə ümumiyyətlə yaxşı oynanıldı, fəqət göstərildiyi pərdələrdən Nadir Şahın şikarı şayani-təqdir [təqdirəlayiq] idi. Ən mühüm rollardan olan Nadirin rolunu öhdəsinə götürmüş cənab Sidqi Ruhulla cənabları həm rolunu və həm də rejissorluq vəzifəsini layiqilə ifaya qadir oldu.

Ləyaqətlə rollarını ifa edənlərdən Mirzə Mehdi xan rolunda Hacıağa Abbasov, sonra görücülük və elçilik edən gənc aktyorlarımızdan Atakişizadə İbrahim idi. Rzaqulu Mirzə rolunda Xəlil Hüseynzadə, Təhmasib rolunda Rza Darablı cənabları usta artist olduqlarını bildirdilər. Heydər xan rolunda mərhum Hacı Cabbarzadənin yeri görünürdüsə də, Anaplı cənabları bu rolu mahiranə və mühilanə [hiyləgər] oynamaqla bir qüsur qoymadı. Digərləri də rollarında o qədər də fəna deyildi. Gələcək tiyatrolarımızın daha gözəl çıxacağına ümidvarız.

M. C.

LƏNKƏRANDAN
(xüsusi müxbirimizdən)

Məlum olduğu üzrə, Biçeraxov tərəfindən dəvət edilmiş ingilislər bir müddət Lənkəranda qaldılar. Şimdi ingilislər təcili surətdə ləvazimati-hərbiyyəni alaraq Ənzəliyə getmişdir və beləliklə ingilislər öz işlərinə burada xitam vermişlər. İngilislərin ricəti [qayıtması], şayiata görə, siyasi əhvaldan iləri gəlmişdir. Muğandakı iki ingilis zabiti oradan qayıdıb Ənzəliyə getmişlərdir. Biz "Qafqaz-Merkuri" cəmiyyəti kantorasından bilet aldığımız vaxt ingilislər camaata deyirmişlər ki, Türkiyə ilə İngiltərə miyanında [arasında] möhkəm sülh əqd edilir [bağlanır]. Azərbaycana da bu sülh mövcibincə [bu sülhə əsasən] istiqlaliyyət verilməlidir. Bundan naşi [bu səbəbdən] ingilislərin burada qalması bicadır [yersizdir].

Mərkəzi Kaspi Donanması tərəfindən Sara adasında hazırlanmış taxıl, İngiltərə qoşunu üçün Ənzəliyə göndərilir. Böyləliklə, Lənkəran əhalisi aclığa məruz qalacaqdır. Əlbəttə ki, Mərkəzi Kaspi Donanmasının başcıları müqəssirdirlər: onlar kəndlilərin taxılını ucuz qiymətə həcz [müsadirə] edərək ingilislərə baha qiymətə satırlar. Bolşeviklər tərəfindən həcz edilmiş vaporların da ingilislərə satılması aşkar olur. Şayiata görə bunlar da İrana getmək fikrindədirlər.

XARİCİ XƏBƏRLƏR

* Vladiqafqazdan gələnlərin dediklərinə görə, orada bolşeviklərlə kazaklar miyanında [arasında] ciddi müharibə başlanmışdır. Tərəfeyn [iki tərəf də] çoxdan hazırlanırmış. Axır vaxtlar bolşeviklər fişəng və mərmi azlığından ciddi çıxışlar yapmayırmışlar. Fişəngi biri 5 manatdan gizli surətdə alırmışlar. Bolşeviklərin Nikolay pulu qur-tardığından naşi [qurtardığı üçün], axır vaxtlar heç bir ləvazimati-hərbiyyə almayırmışlar. İnquşların bolşeviklərə kömək edib-etməyəcəkləri məsələsi aydın deyildir. Bunlar hələlik bitərəfdirlər. Sunjen xətti kazakları Mozdokdan kömək almışlardır.

Şura hüdudunun qapanması

Trotskinin əmri mövcibincə [əmrinə əsasən] Velikorusiyanın hüdudu qapanmışdır. Vyatkaya şiməndifər [qatar] hərəkatı dayandırılmışdır.

Kəndlilərin Krasnova müavinəti [köməyi]

Voronejdən verilən məlumata görə, Zadonsk və Boquçarsk qəzalarının kəndliləri Krasnova müavinət etmək qəsdilə dəstələr düzəldirlər.

* * *

Belqrad - Moskvadan verilən xəbərlərə görə, əks-inqilabla mübarizə edici komitənin əmri mövcibincə [əmrinə əsasən], fərar etmiş zabitan, sərvətdarlar, tüccar və başqalarının qadın və övladını tövqif [həbs] edirlər. Bunları məktub yazıb, fərariləri dəvətə məcbur edirlər. Bu əmrə əməl etməyən arvad-uşaqları gülləbaran edirlər.

İnqilab intişarına [təbliğinə]

"Kommunist" təşrini-əvvəlin [oktyabrın] 8-indən xəbər verir:

Tseka Andjelik Balabanovanın qətnaməsinə görə, Yasinski ilə Qorkiyə beynəlmiləl ictimaiyyət və inqilabı nəşr və təbliğindən ötrü bir milyon rublə təxsis edilmişdir [ayrılmışdır].

Hürriyyəti-kəlam [söz azadlığı]

Saratovda əks-inqilabla mübarizə edici komitənin sədri Qenkinin imzasıyla soqaq və caddələrdə elan yapışdırılmışdır. İşbu elanda Şura Hökuməti fəaliyyətini açıq-açığa tənqid edəcək əşxasın [şəxslərin] qətl ediləcəyi yazılmışdır.

Bolşeviklərlə mübarizə

Moskva - Kiyevdən Şura Hökumətinə mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Krasnov Hökuməti ilə Kuban Hökuməti Etilaf hökumətlərilə müzakirata [müzakirələrə, danışıqlara] girişmişlərdir. İngiltərə nümayəndəsi Krasnova bəyan etmişdir ki, Etilaf hökumətləri bolşeviklər əleyhinə bir blok düzəltməkdədirlər. Bunlar Mərkəzi Rusiyadakı Şura Hökumətini yıxmağa çalışacaqlar. Etilaf hökumətləri hər ay Krasnova və başqa Ağqvardiya təşkilatları nəfinə [yararına] müəyyən bir məbləğ göndərməlidirlər. Krasnov, Almaniya Hökumətinə də bu xüsusda müraciət etmişdir. Krasnovun nümayəndələri Almaniya ərkani-hərbinə də [Baş Qərargahına da] gəlmişlərdir. Ərkani-hərb, Almaniya Hökumətinin də razılığını bəyan etmişdir.

Bolşeviklərlə ukraynalılar

Xarkov - Təşrini-əvvəlin [oktyabrın] 31-ində Hərbiyyə Nəzarətindən verilən hərbiyyə xəbərlərə görə Starodub dairəsində ukraynalılarla üsyançı bolşeviklər miyanında [arasında] toqquşma olmuşdur. Starodub və Buçki kəndi üsyançıların ağır top atəşlərinə məruz qalmışdır.

Samara - Sabiq komandan evində gizli bir otaq tapılmışdır. Əks-inqilabda müttəhim olanları burada gülləbaran edirmişlər.

Türküstanda

Daşkənd - Sabiq Petroqrad qradonaçalniki Cunkovskinin rəyasəti altında İngiltərə parası ilə işləyən bir əks-inqilab sui-niyyəti [qanunsuz təşkilatı] kəşf edilmişdir. Bir çox adam tövqif [həbs] edilmişdir.

İDARƏYƏ MƏKTUB
"Azərbaycan" qəzetəsi müdiriyyətinə

Salyan camaatı tərəfindən Salyandakı İkinci Azərbaycan Firqəsi qoşunlarına və xəstəxanalarına cürbəcür edilən kömək həsəbiylə [səbəbiylə] Salyan əhalisinə öz təşəkkürat və təqdir etmək təbliğinə [təşəkkür və təqdirimi çatdırmağa] qəzetənizin vasitə olması təmənni olunur.

İkinci Azərbaycan Firqəsi komandanı

POSTA QUTUSU

Baytar əfəndiyə (Sabunçuda): Məqaləniz xüsusunda kəndinizlə görüşmək istərdik.

ELAN

Mənzil Müfəttişliyinə iki nəfər türkcə qonuşan bakılı və yaxud Bakı şəhərinə bələd məmur lazımdır.

Ünvan: Mariinski caddədə, nömrə 6.

711 6-5

YANĞINDAN SIĞORTA EDƏN MOSKVA CƏMİYYƏTİ

Yanğından hər növ əmlak sığorta edir. Məsələn ev, ev müxəlləfatı [əşyası], mal, zavod, neft məhsulatı və qeyrə [və ilaxır].

Mərkəzi acentə: İ. P. Şreyder.

Unvan: Köhnə polis caddəsində Qinatinin 11 nömrəli evində. Telefon 5-47.

239

ELANLAR

Mamafeldşer M. K. Markoviç

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

240

Doktor F.S.Şteyn

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

232 25-3

Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

216 25-11

Arvad diş həkimi Z.A.Şexter xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

215 25-12

Diş müalicəxanası
S.M.İtkinin süni diş laboratoriyası

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan 1-ə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

208 25-14

Müdirlər:
Ceyhun bəy Hacıbəyli
Şəfi bəy Rüstəmbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri

"…Sava və Drava silsileyi-cibali [dağ silsiləsi] arasına cəm olmuşdur": Bu cümlədə qeyri-dəqiqlik var. Belə başa düşülməlidir: "…Sava və Drava arasındakı dağ silsiləsinə cəm olmuşdur." Sava və Drava Avropanın cənub-şərqində, Dunay çayının sağ qolu olan iki çayın adıdır.

"…Aqramda olan Cənubi Slav Milli Şurasına…": Avstriya-Macarıstan imperiyası dövründə Zaqreb şəhəri alman mənbələrində "Aqram" [Agram] adlanmışdır.

İstanbuldakı məktəblər

"Bundan maəda [başqa], xəstəyə baxıcılıq üçün məktəblər açılmışdır ki, orada ordu üçün baxıcılar və sihhiyyələr yetişdirilir.": "Sihhiyyə" yaxud "sihhiyyəci" ibtidai tibbi biliklərə malik olan və orduda xidmət edən şəxs.

"M. H.": "Azərbaycan" qəzetində bu imza Hənəfi Zeynallıya məxsusdur.

Gəncədə milli zabitan təftiş və imtahan mərasimi

"Hazır ol cəngə, əgər istər isən sülhü səlah": "Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan".

"Sizlə bərabər gəlməklə…": Qəzetdə belə getmişdir: "Sizlə bərabər gəlməkdə…"

Səməndər: VIII əsrdə Xəzər xaqanlığının paytaxtı olmuş şəhər. Bugünkü Mahaçqala şəhərinin yaxınlığında yerləşmişdir.

Uzunada limanı: Xəzər dənizinin şərq sahilində, Uzunada buxtasında liman və dəmiryol stansiyası. 1885-ci ildə qurulmuşdur. Daha böyük gəmilərin qəbul edilməsi ehtiyacı hasil olduğundan liman XIX əsrin axırında yaxınlıqdakı Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinə köçürülmüşdür.

"Əski Mərğilan "Skobelev"dir.": Özbəkistanın Fərqanə vilayətinin inzibati mərkəzi olan Fərqanə şəhəri, Fərqanə vadisinin ən qədim şəhərlərindən biri olan Mərğilan şəhərindən 12 km məsafədə 1876-cı ildə "Yeni Mərğilan" adıyla salınmışdır. 1907-ci ildə şəhərin adı dəyişdirilərək, Türküstanı işğal edən Rusiya ordularının komandiri, eyni zamanda şəhərin salınmasının təşəbbüskarı olan Mixail Skobelev'in şərəfinə "Skobelev" adlandırılmışdır. 1924-ci ildə isə şəhərə yerləşdiyi Fərqanə vadisinin adı verilmişdir.

"Allah ömür versin xəlifəmizə!": Osmanlı imperiyasının sonuncu sultanı olan Məhməd Vəhidəddin (VI Məhməd) nəzərdə tutulur.

"Və cahədu fi-səbilillahi": "Allah yolunda cihad edənlər". "Quran"ın "Ənfal" surəsinin 74-cü ayəsindən bir parça. Ayənin tərcüməsi belədir: "İnanıb hicrət edənlər, Allah yolunda cihad edənlər və mühacirlərə sığınacaq verib kömək edənlər – məhz onlar həqiqi möminlərdir. Onları bağışlanma və tükənməz ruzi gözləyir".

Türk duyğuları: Çiçəklərlə

"18-10-334": Burada il Rumi təqvimlə verilmişdir (1334-cü il). Miladi təqvimlə 18 oktyabr 1918-ci ilə uyğundur.

"Türk duyğuları: Çiçəklərlə" şeiri üçün lüğət

mor: bənövşəyi
qızıl: qırmızı

Erməni-gürcü ixtilafı

"Sülh və sairə tükənmədikcə ordumuz silaha sarılmayacaqdır.": "və sairə" yerinə çox güman ki, "vəsaili" yaxud "vəsaiti" [vasitələri] olmalı idi.

İnqilab intişarına

"Tseka": Mərkəzi Komitə.

"Tseka Andjelik Balabanovanın qətnaməsinə görə, Yasinski ilə Qorkiyə beynəlmiləl ictimaiyyət və inqilabı nəşr və təbliğindən ötrü bir milyon rublə təxsis edilmişdir [ayrılmışdır].": Bu xəbər belə başa düşülməlidir: "Mərkəzi Komitənin qətnaməsi əsasında Anjelika Balabanova tərəfindən Beynəlxalq sosializmi və inqilabı yaymaq və təbliğ etmək məqsədi ilə Yasinski və Qorkiyə 1 milyon rublə ayrılmışdır."